# Tarixin əvəzsiz yadigarı

***Qəbələ min ilə yaxın bir dövrdə Qafqaz Albaniyasının paytaxt şəhəri olmuş, qaynar həyat yaşamışdır. Miladdan əvvəl IV əsrdən başlayaraq yazılı mənbələrdə adı çəkilən Qəbələdən V əsrdə ölkənin paytaxtı Bərdəyə köçürülmüşdür. Bununla belə, Qəbələdə həyat davam etmiş, ölkənin mühüm mədəni-strateji şəhərlərindən biri kimi yaşamışdır.***

***Qəbələ keçmişimizlə bu günümüz arasında ayrılmaz körpüdür, şanlı tarixdir. Ulu əcdadlarımızın əvəzsiz yadigarını qorumaq, yaşatmaq, gələcəyimizə çatdırmaq müqəddəs borcumuzdur. Keçmişini bilməyən, gələcəyini görməz. Vətəninin tarixini bilməyəndən nə vətəndaş, nə də vətənpərvər olar.***



Qəbələdə 1926-cı ildən başlanan arxeoloji tədqiqatlar artıq1959-cu ildən intensivləşərək stasionar ekspedisiya tərəfindən davam etdirilmiş və bu illər ərzində çox zəngin tarixi arxeoloji materiallar toplanılmışdır.

Geniş miqyaslı arxeoloji qazıntılar zamanı əldə olunmuş çox zəngin maddi mədəniyyət kolleksiyası Azərbaycanda şəhər mədəniyyəti tarixinin dərindən və hərtərəfli öyrənilməsi üçün misilsiz əhəmiyyətə malikdir.

Qəbələ şəhəri Qala, Səlbir və Çaqqallı adı ilə bəlli olan üç əsas hissədən ibarətdir. Qaraçay və Qoçalan çayları arasında Çaqqallı (ərazisi 50 ha-dır) adı ilə tanınan sahədə aparılmış tədqiqatlar nəticəsində e.ə IV əsrdən başlayaraq eramızın I əsrinin sonlarınadək orada intensiv şəhər həyatı olduğu sübuta yetirilmişdir. Şəhərin Səlbir adlanan hissəsində (ərazisi təqribən 13 ha-dır) I-X əsrlərə, Qalada (ərazisi təqribən 12 ha-dır) isə I-XVII əsrlərə aid bir neçə metr qalınlığında zəngin mədəni təbəqə olduğu müəyyən edilmişdir.

Göründüyü kimi, Çaqqallıda şəhər həyatı kəsildikdən sonra Səlbir və Qalada həyat başlamışdır. X əsrdən etibarən isə şəhərin ancaq Qala hissəsində həyat davam etmişdir. Qəbələnin qala divarları özünün möhtəşəmliyi ilə Azərbaycanın digər orta əsr şəhərlərinin müdafiə sistemindən xeyli fərqlənir.

Səlbirin divarları əsasən Sasani dövrü arxitekturası üçün xarakterik olan çiy kərpicdən və yonulmuş çay daşından istifadə olunmaqla inşa edilmişdir. Orada qala divarlarının xarakterini və dövrünü öyrənmək məqsədilə 1967-ci ildə tanınmış arxeoloq Saleh Qazıyev tərəfindən tədqiqatlar aparılmışdır. Bu məqsədlə şimal divarlarında yerüstü əlamətlərinə görə nisbətən daha əzəmətli görünən bürc öyrənilmişdir. Yarımdairəvi formada olan bu bürc möhrədən və tərkibində saman qatışığı olan çiy kərpicdən tikilmişdir. Bürcün daxili hissəsinin diametri 3 m-dir. Həm qala bürcünə, həm də onun davamı olan divarlara xaric tərəfdən çiy kərpiclə üzlük vurulmuşdur. Qala divarlarının daxili tərəfində isə çay daşı, bişmiş kərpic və əhəng məhlulu ilə tikilən köməkçi divar qalıqları olduğu müəyyənləşdirilmişdir. Tədqiqatçıların fikrincə 6 m uzunluğu olan bu divar əsas qala divarlarından sonra, bərpa məqsədilə tikilmişdir.

1974-1978-ci illərdə arxeoloq Firudin Qədirov tərəfindən Səlbirin cənub-qərb küncündə tədqiqatlar aparılarkən orada çay daşından inşa edilmiş daha bir möhtəşəm bürc aşkar edilmişdir.

**(Ardı gələn sayımızda).**

# Mənzildəki sağlam mühit stresi aradan qaldırır

Mənzillərdə sağlam mühit yaratmaq və lazımlı aeroionların miqdarını artırmaq üçün bitkilər yetişdirmək və onlara qulluq etmək vacibdir. Mütəxəssislər bitkiləri donor-enerji verən və ya vampir-enerji absorbsiya edən olmaqla iki hissəyə ayırırlar. Evlərdə hündürlüyü 50 santimetrdən çox olmamaq şərti ilə 5-6 bitkini bəcərmək kifayətdir. Bitkilər ekoloji cəhətdən sorucu nasos vəzifəsini yerinə yetirir, karbon qazını udur və havanı oksigen qazı ilə zənginləşdirirlər.



Ən çox oksigen sintez edən bitki sansevieriyadır. Müxtəlif növlü fikuslar civə buxarının indikatoru hesab olunurlar. Belə ki, əgər evdə az miqdarda civə buxarı varsa, o zaman fikuslar məhv olur. Filodendron, aloe (əzvay) və s. bitkilər havanı toksiki maddələrdən təmizləyə, qəhvə ağacı isə çox yaxşı ozonlaşdıra bilər. Dərman bitkisi olan aloe mənzildə olan müxtəlif növlü orqanizmlərlə mübarizədə çox effektlidir.

Bitkilər xəstəlik törədən, mikrob və virusları məhv edən xassələrə malikdirlər. Fitonsidlər çox zərərli mikroorqanizmləri məhv edə bilirlər. Evin havasını bakteriya və viruslardan təmizləmək üçün xlorofitum bitkisinin saxlanılması tövsiyə olunur. Çünki onun 24 saat ərzində mənzildə olan patogen mikroorqanizmlərin 80 faizini öldürməsi təcrübələrlə sübut edilib. Araşdırmaların nəticəsinə görə, murt (mərsin) bitkisi isə həmin mikrobların yarısını öldürmək qabiliyyətinə malikdir. Bundan başqa, asparaqus, monstera, moloçay və krasula (pul ağacı) bitkiləri də mənzildə olan mikrob və virusları 2-3 dəfə azaldır. Bundan əlavə, ev bitkiləri arasında evkalipt, prutovid və qlobulis də çox faydalıdır.

Bəzi bitkilər sakitləşdirici xassəyə malik olduğundan onları yataq otağında saxlamaq məsləhət görülür. Melissa, monstera, pelarqoniya (ətirşah) və rozmarin bitkilərinin yataq otağında saxlanılması məqsədəuyğundur. Belə ki, yataq otağında saxlanılması tövsiyə edilən rozmarinin enerjisi yorğunluğu, qorxunu, həyəcanı və yuxusuzluğu aradan qaldırır.

Ev bitkilərindən olan geran donor bitkilərə aiddir. Əgər özünüzdə yorğunluq hiss edirsinizsə, o zaman həmin bitkinin yanında oturun. Onun güclü və sağlam enerjisi sizə kömək edəcək. Fikus da evinizə müsbət enerji bəxş edə biləcək qabiliyyətə malikdir. Belə ki, onun sayəsində evlərdə kin, nəzər və mübahisənin olmadığı deyilir.

Kaktus zərərli elektromaqnit şüalarını neytrallaşdırmaqla neqativ aeroionların verilməsində iştirak edir. Ona görə də bu bitkini evlərdə və iş yerlərində kompüterlərin yanında saxlamaq məsləhət görülür.

**«Qəbələ»**

**(Əvvəli 5-ci səhifədə).**

# Bayramın mübarək, «Qəbələ»!

da, Rais də həmin "ağıllı" maşını çox məharətlə idarə edirdilər.

Qəzetin yaradıcı heyətində Soltan Kərimov, Tacəddin Məmmədov (Şahdağlı), Əziz Əzizov, Aslan Cəlilov, Səid Tahirov, Nurəddin Şirinov, Əzizulla Kərimov, Nadir Atakişiyev, Yəhya Gərayzadə, Çinar Eyyubov və Pəricahan Abdullayeva çalışırdı. "Qalibiyyət" qəzeti həmin illərdə həqiqətən oxucuların sevimlisi olmuşdu. Qəzetdə rayonumuzun bütün sahələri haqqında yazılar dərc edilirdi. Oxucular qəzetlə yaxından əlaqə saxlayırdılar.

Hüseynağa Qasımov, Həmzət Həmzəyev, Əhməd Sadıqov, Çələbi Dursunzadə, Məmmədəli Səfərçinov, Emin Ədilov, Kamran Hüseynov, Sadəddin Mahmudzadə, Valeh Əzizov və başqaları qəzetin fəal müxbirləri idilər.

Rüstəm Rüstəmov, Səfər Mahmudzadə, Zinyət Babayeva, Akif İsmətoğlu qəzetin ən yaxşı işləyən korrektorları olublar. Rüstəm, Səfər, Akif də sonralar Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunub, jurnalist diplomu aldılar. Elbrus Osmanov və Səhrab Umuyev də redaksiyada ayrı-ayrı illərdə fotomüxbir işləyiblər.

Qəzetdə əməyi olanlardan söhbət düşəndə mühasiblərin də adını çəkməmək olmur. Rauf Kərimov, Fəxrəddin İsayev, Cavanşir Mahmudov, Adil Musayev, Füzuli Bayramov başqa-başqa vaxtlarda redaksiyanın mühasibi olublar. Sevil Mürsəlova, Adilə Qarayeva və Nahidə Əbdürəhimova da başqa-başqa illərdə redaksiyada makinaçı işləmişlər.

Rayonumuzun ədəbiyyat həvəskarları həmişə qəzetin diqqət mərkəzində olublar. Şərif Tahirli, Emin Baratoğlu, Mehrəli Mehrəliyev, Əhməd Məmmədli, Fəhmi İslamov, Fəryaz Həmidov, Cəlil Komradlı, Füzuli Mənsuri (Yavər), Narxanım Rəşidova, Elçin Qədirov, Aygün Həsənoğlu, Rasim Bayramoğlu, İlham Muradov, Ənvər Sərkərov, Yavər Lazalı, İbrahim Qaraçaylı və digərləri redaksiyaya bədii cəhətdən yüksək səviyyəli şeirlər göndərirdilər.

Qəzetin bayram günlərinə təsadüf edən sayları bir qayda olaraq göy, yaşıl, yaxud da qırmızı rəngdə çap olunurdu.

Redaksiyamıza respublikamızın bir sıra rayonlarından qəzetlər göndərilirdi. Məsələn Ağdaşdan "Əmək", Göyçaydan "Yeni həyat", Şəkidən "Şəki fəhləsi", Mingəçevirdən "Mingəçevir işıqları", Uçardan "Yeni söz" qəzetləri və sair. Eləcə də "Qalibiyyət" qəzeti Mərkəzi Komitəyə, Respublika Kitab Palatasına, Respublika Kitabxanasına və başqa rayonların qəzet redaksiyalarına göndərilirdi. Qəzet həftədə 3 dəfə, 1.800-2000 tirajla çap edilirdi. Redaksiyaya "QAZ-69" markalı minik maşını da verilmişdi.

Rayonun qədim adı - Qəbələ yenidən bərpa olunduqdan sonra "Qalibiyyət"in də adını dəyişib "Qəbələ" qoydular. "Qəbələ" qəzetinin əməkdaşları Miri Rəhimov, Mirəvəz Rəhimov, Bibixanım İsayeva, Xəzər Qəribov və digər gənclər qəzetin maraqlı çıxması üçün böyük həvəslə işləyirdilər.

İllər keçdikcə qəzetin redaktorları da dəyişilirdi. Ramazan İsmayılovdan sonra Əziz Əzizov, Tacəddin Məmmədov (Şahdağlı), Nadir Atakişiyev və Oqtay Məmmədov "Qəbələ"nin redaktorları olmuşlar.

"Qəbələ" qəzeti sovetlər dövründə də, müstəqillik illərində də rayonumuzun güzgüsü olub, həyatı olduğu kimi əks etdirib. Oxucular onu həmişə sevə-sevə oxuyurdular. Mən qəzetdə çalışdığım illəri ömrümün sonuna qədər unuda bilmərəm. Bu yazıda adlarını çəkdiyim bütün adamlar mənim üçün doğma və əzizdirlər.

"Mübariz" də, "Qalibiyyət" də, "Qəbələ" də rayonumuzun oxucularının doğma və sevimli qəzetləri olublar. Bu qəzetlərin hər biri çətin və şərəfli bir yol keçiblər. O vaxtlar heç ağlıma da gəlməzdi ki, 52 ildən sonra bu barədə yazı yazmalı olacağam.

"Qəbələ" qəzeti bu gün də keçmiş ənənələri uğurla davam etdirir. Redaktor Varis Yaqubov və məsul katib Qüdrət Səmədov qəzetin qoşa qanadlarıdır. Onlar kollektivin üzvləri ilə birlikdə qəzetin günün tələbləri səviyyəsində çıxması üçün böyük səylə çalışırlar. Hər şey göz qabağındadır. Qəzetin necə zəhmətlə ərsəyə gəlməsini yaxşı bilirəm. Mən ömrümün bu çağında qəzetin bütün saylarını sevə-sevə oxuyuram.

Bu yazı "Qəbələ"nin bayramına bir ətirli çiçək dəstəsi olsun! Yazımı oxuduqca, xatirələr vərəqləndi. Hər şey gözlərim qarşısında canlandı. Sanki qulaqlarıma mətbəədəki çap maşınının, "Linotip" maşınının, redaksiyadakı makinaların və keçmişdəki iş yoldaşlarımın səsi gəldi... Cavanlaşdım... O günləri yenidən yaşadım. Kaş ki, həmin günlər yenidən təkrarlanaydı!

*86 yaşın mübarək, "Qəbələ"!*

**Şakir XƏYAL,**
**şair.**